# Səyyar qəbullar

Həyat ta yaranışından problemlərlə birgə inkişafdadır. Hər dövr də özünəməxsus həlli vacib məsələlərlə zəngin olur. Axı arzu arzudan, istək istəkdən doğulur. İnsan həyatı isə arzular toplumunda davam edir. Bu həyatı yaşayarkən hər kəs çətin sınaqlardan keçir. Bu çətinliklərin, problemlərin həll olunmasında insanlar bir-birinə kömək edir, həyatın axarı ilə yaşamağa davam edirlər. Hər yaş dövrünün özünəməxsus problemləri vardır, bu isə çox zaman yaşadığımız zamanın mövcudluğundan irəli gəlir. Problemlərin həlli də insanların əlində, fəaliyyətindədir.

Hər bir problem aid olduğu idarə və müəssisə, qurumlar tərəfindən həll olunur, onlara həm psixoloji, həm də müəyyən mənada maddi dəstəklər olunur və insanlar öz həyatlarına davam edirlər.

Məlum olduğu kimi, rayonumuzda ayrı-ayrı qəsəbə və kəndlərdə səyyar qəbulların keçirilməsi artıq ənənə şəklini almışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonumuzun qəsəbə və kəndlərində sakinlərlə görüşlər keçirir və onların qarşılaşdıqları problemlərin həll olunmasını diqqət mərkəzində saxlayır.


Nohurqışlaq kəndi.






Nic qəsəbəsi.


Vəndam qəsəbəsi.


Yenikənd kəndi.


Həmzəli kəndi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Keən il olduğu kimi bu il də səyyar qəbulların keçirilməsi davam edir. 2023-cü ilin ilk ayından başlanan səyyar qəbul Nohurqışlaq kəndində keçirilmişdir. Fevral ayında rayonumuzun Vəndam və Nic qəsəbələrində, Həmzəli və Yenikənd kəndlərində səyyar qəbullar keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

# Türkiyə - Azərbaycan - bir millət, iki dövlətik

6 fevral - Türkiyədə baş verən güclü zəlzələ bütün dünya tarixində baş verən ən ağır faciələrdən birinə çevrildi. Ölkədə baş verən, Kahramanmaraş şəhərinin Pazarçik rayonunda olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonunda 7,6 maqnitudalı 2 zəlzələ olmuşdur

Güclü yeraltı təkanlardan sonra bölgədə 6,6 maqnitudayadək 6.000-dən çox afterşok qeydə alınıb. İki zəlzələ həmçinin Şivan, Kipr, İraq, İsrail, İordaniya, İran və Misirdə də hiss olunmuşdur.

Bu hadisə Türkiyədə 1939-cu ildən bəri qeydə alınan ən güclü zəlzələ kimi tarixə düşmüşdür.

Təbii fəlakət türkiyə və Suriyada böyük dağıntı və on minlərlə itkiyə səbəb olmuşdur. Türkiyənin zəlzələ baş verən 10 şəhərində 3 aylıq fövqəladə vəziyyət elan olunmuşdur.

Zəlzələ nəticəsində ümumilikdə 105 min tikiliyə ziyan dəymişdir.

Ən acınacaqlı hal isə odur ki, bu facie nəticəsində Türkiyədə həyatını itirənlərin sayı 43 mindən çoxdur. Həmçinin axtarışlar davam etdirilir.

Yaralılar isə təxminən 108.000-dən çoxdur. Zəlzələ baş verən kimi bu bölgələrdə axtarış-xilasetmə işləri aparılmışdır.

Mobil səhra hospitalında 260-ı uşaq olmaqla 1364 nəfərə tibbi xidmət göstərilib.

Zəlzələdə 10 Azərbaycan vətəndaşı həlak olub.





Fevralın 6-dan bu günədək 513 nəfər Azərbaycan vətəndaşı ölkəmizə təxliyə olunub.

Zəlzələnin iqtisadi ziyanı 84,1 milyard dollar olaraq qiymətləndirilir.

BMT zəlzələnin təsir etdiyi ərazidə 800 mindən çox insanın normal qidalanmadan məhrum olduğunu bildirir

Artıq xilasetmə işləri başa çatdırılmış, dağıntı bölgələrindən zərərçəkənlərin nəşi tapılır və dəfn olunur.

Zəlzələdən dərhal sonra Azərbaycan da qardaş ölkə üçün həm canlı qüvvə ilə xilasetmə işlərinə kömək etmiş, həmçinin ölkə üçün yardım toplanmasına başlamış və Türkiyəyə göndərmişdir.

**"Qəbələ"**